# *Natəvan klubunda Şahnaz Şahinin kitabları təqdim edildi*




Dekabrın 17-də AYB-nin Natəvan klubunda şair-publisist Şahnaz Şahinin "Sabirabad şəhidləri", "Zəfər nəğmələri" və "Xocalının Sərvəri" adlı kitablarının təqdimatı keçirildi.

Tədbiri Yazıçılar Birliyinin katibi Elçin Hüseynbəyli açdı. Diqqətə çatdırdı ki, təqdim olunan kitabların əsas mövzuları yurd, vətən sevgisi, əbədi-əzəli Qarabağ torpaqlarımızın azadlığı yolunda şəhidlik zirvəsinə yüksəlmiş oğullarımızın qəhrəmanlıq yoludur. Şahnaz xanım bu mövzuda olan fikirlərini xüsusi həssaslıqla, dərin minnətdarlıq duyğuları ilə qələmə alıb. Bu, vacib, nəcib, əsl vətəndaşlıq duyğusundan irəli gələn mənəvi borc hissidi...

Tədbirin aparıcısı, tanınmış tənqidçi-publisist Əsəd Cahangir təqdim edilən kitabın məziyyətlərindən ətraflı bəhs etdi. Vurğuladı ki, Şahnaz Şahinin bir qələm adamı kimi başlığa məziyyəti odur ki, ürəyinin səsini yazır, təbii və məntiqlidir. Təqdim olunan kitablara daxil edilən yazılar ilk növbədə əziz şəhidlərimizin ailələrinə, doğmalarına, ən əsası, Vətənə verilən şair məsələləridir. Və günün ən vacib, aktual, eyni zamanda xüsusi duyğusallıq, vətəndaşlıq əzmi tələb edən yazılardır. Şahnaz xanım bu kitablarda Azərbaycan oxucusu üçün ən vacib olanları yazıb.

"Yada düşdü" dərgisinin baş redaktoru, şair-publisist Nəzakət Məmmədli bir söz adamı kimi Şahnaz Şahinin səmimiyyətindən, milli dəyərlərə, vətənçilik hissinə sədaqətindən və bu məziyyətləri əsərlərində yetərli şəkildə ifadə etməsindən bəhs etdi.

Şair Rafiq Tağızadə, Nazilə Gültac və digər çıxışçılar da qələm dostlarının ədəbi uğurlarını diqqətlə izlədiklərini bildirdilər, təqdim olunan kitabın məziyyətlərindən ətraflı şəkildə söz açdılar.

Sonda Şahnaz Şahin kitabının təqdimatı üçün yaratdığı şəraitə görə AYB-nin rəhbərliyinə, tədbir iştirakçılarına və əsərləri barədə xoş ürək sözlərini bölüşən qələm dostlarına təşəkkürünü bildirdi.

**Sərvaz**

Ədəbiyyat qəzeti.- 18 dekabr.- 2021- ci il.- S. 21.